# HACIQABUL

№ 06-07
(686-687)

16 mart
2018-ci il

Hacıqabul rayon İcra Hakimiyyətinin qəzeti


# Novruz bayramı münasibəti ilə Hacıqabul rayon sakinlərinə Təbrik

**Əziz hacıqabullular!**

Xalqımız üçün əziz olan Novruz bayramı münasibəti ilə Sizləri səmimi qəlbdən təbrik edir, hər birinizə səadət və xoşbəxtlik dolu bahar təravətli günlər arzulayıram.

Novruz qədim zamanlardan xalqımız tərəfindən yüksək səviyyədə qeyd olunmuş, təbiətin oyanışı, baharın gəlişi ilə ürəklərdə saf niyyətlərin, xoş arzuların yarandığı bir bayram kimi daima sevilmişdir. Əsrlərin sınağından çıxmış mənəvi dəyərlərimizi, adət-ənənələrimizi özündə yaşadan Novruz insanlar arasında birlik və mehribanlığın möhkəmləndirilməsi, onların bir-birinə mərhəmət və diqqət göstərməsi kimi sağlam təməllər yaratmışdır.

Ulu öndər Heydər Əliyevin Azərbaycanın minillik sınağından çıxmış mədəniyyətinə, tarixinə, ənənəsinə həddən artıq bağlı olmaqla yanaşı, onların olduğu kimi xalqa qaytarılması üçün əlindən gələni əsirgəməmişdir. Novruz sovetlər birliyi dönəmində dövlət səviyyəsində qeyd olunmmasa da, ötən əsrin 60-70-ci illərində respublikaya rəhbərlik etmiş Heydər Əliyevin milli ənənə və dəyərlərə daxilən möhkəm bağlılığı bu bayramın xalq arasında sevilərək yaşadılmasını təmin etmişdir.

Bu gün infrastruktur layihələrin ardıcıl gerçəkləşməsinin nəticəsi olaraq sürətlə modernləşən ölkəmizdə Yaz bayramı mədəni irsə qayğıkeş münasibətin və ənənəvi dəyərlərə bağlılığın rəmzinə çevrilmişdir. Müstəqil Azərbaycanın dinamik inkişafla səciyyələnən müasir həyatı və yurdumuzun bütün guşələrini əhatə edən genişmiqyaslı quruculuq-abadlıq işləri isə bayramın yeniləşdirici ab-havası ilə həmahəngdir. Bu bahar günlərində respublikamızın tərəqqisi, onun regionda lider dövlətə çevrilməsi bir daha qürurla qeyd olunmalıdır.

Müstəqil Azərbaycanımızın bütün bölgələrində aparılan genişmiqyaslı quruculuq işləri təbiətlə yanaşı, həyatımızın da sürətli yeniləşməsindən xəbər verir. Ölkəmizdə müşahidə olunan sosial-iqtisadi inkişaf hər bir azərbaycanlıda yüksək əhval-ruhiyyə yaradır. Bu səbəbdəndir ki, milli birlik, əmin-amanlıq, sülh, bolluq, bərəkət, dostluq bayramı olan Novruz rayonumuzun hər bir sakini, hər bir ailəsi tərəfindən yüksək səviyyədə qeyd edilir.

**Əziz hacıqabullular!**

Yurdumuza baharla birgə qədəm basan yaz ətirli Novruz bayramında hamınıza əmin-amanlıq, möhkəm cansağlığı, ailə səadəti, bol ruzi-bərəkət və dövlətimizin tərəqqisi və çiçəklənməsi naminə yeni-yeni uğurlar arzulayıram.

Elimizin baharı, yurdumuzun Novruzu mübarək olsun!

***Ə.K.Muxtarov,***
***Rayon İcra Hakimiyyətinin Başçısı***

# Əhalinin tibbi müayinəsi davam edir

## *51594 min rayon sakini pulsuz tibbi müayinələrdən keçəcəkdir*

***Prezident İlham Əliyevin tapşırıq və tövsiyyəsinə uyğun olaraq əhalinin pulsuz tibbi müayinədən keçirilməsi aksiyası rayonumuzda mütəşəkkil qaydada davam etdirilir. Fevralın 12-də başlayan aksiya çərçivəsində indiyədək 20430 nəfər rayon sakini tibbi müayinədən keçib.***

Müayinələrin keçirildiyi Uşaq Tibb Mərkəzində əhalinin kütləvi dispanzerizasiyasına ciddi hazırlıq işləri görülmüş, müayinələr müəyyənləşdirilmiş qrafik əsasında aparılır.

Tibbi müayinələrin keçirilməsi üçün təcrübəli, yüksək ixtisaslı mütəxəssislərdən ibarət həkim briqadası fəaliyyət göstərir. Əhalinin sağlamlığının etibarlı şəkildə qorunması, xəstəliklərin erkən aşkar edilərək insanların müalicəyə cəlb olunması məqsədi ilə keçirilən bu kampaniya hamının üreyincədir.

Xəstəliklərin ilkin dövrdə aşkar olunması, xəstələrin dispanzer qeydiyyatına götürülməsi, sonrakı dövrlərdə onların müayinə və müalicəsində böyük əhəmiyyət kəsb edir.

Tibbi müayinədən keçən insanların 19717 nəferində heç bir xəstəlik aşkar olunmamışdır. 545 nəferi ambulator, 122 nəferi isə stasionar müalicəyə cəlb olunmuşdur, 46 nəfər ixtisaslaşmış tibb müəssisələrinə göndərilmiş, 22 nəfərin üzərində cərrahiyyə əməliyyatı aparılmışdır.

İnsanlarda aşkarlanan xəstəliklərin əksəriyyəti ürək-damar, tənəffüs yollarının xəstəlikləri və soyuqdəymə ilə əlaqədar olmuşdur.

***"Hacıqabul"***

*11 Aprel Prezident seçkiləri günüdür*

# Seçkilərə hazırlıq işləri davam edir

***Hazırda respublikamızın hər yerində 11 aprel 2018-ci il tarixdə keçiriləcək prezident seçkilərinə ciddi hazırlıq işləri görülür. Hər bir seçici təxminən bir ay sonra baş tutacaq siyasi kampaniyada səsini verərək öz layiqli namizədini seçəcəyi anı gözləyir.***

Məlum olduğu kimi Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev 05 fevral 2018-ci il tarixdə Azərbaycan Respublikasında Prezident seçkilərinin 2018-ci aprelin 11-də keçirilməsi haqqında sərəncam imzalamışdır. Eyni zamanda Azərbaycan Respublikasının MSK-sı 06 fevral 2018-ci il tarixli 1/2 saylı qərarı ilə Prezident seçkilərinin hazırlanıb keçirilməsi üzrə əsas hərəkət və tədbirlərin Təqvim Planını təsdiq etmişdir. Ötən dövr ərzində 58 saylı Hacıqabul - Kürdəmir seçki dairəsinin DSK-sı Azərbaycan Respublikasının Seçki Məcəlləsinin tələblərinə və Mərkəzi Seçki Komissiyasının təsdiq etdiyi Təqvim Planına uyğun olaraq fəaliyyət göstərmişdir.

58 saylı Hacıqabul-Kürdəmir seçki dairəsi 211 m2 sahədən və 10 otaqdan ibarətdir. Dairə seçki komissiyasının yerləşdiyi binada seçkilərin keçirilməsi üçün tələb olunan inventarlar və lövhələr normal vəziyyətdədir. Otaqlarda iş şəraiti qənatbəxşdir. Tələb olunan bəzi inventarlar arxivdə qorunub saxlanılır. Dairə seçki komissiyasında Seçki Məcəlləsi və müvafiq təlimatlar, vətəndaşların müraciətlərinin qeydiyyat kitabı, komissiyanın tanınma lövhəsi və məlumat lövhəsi vardır. Maddi-texniki təchizat cəhətdən normaldır. Kompüterin MSK-nın DAİS sisteminə qoşulması üçün zəruri proqram və avadanlıq mövcuddur. DSK-da 49 ədəd daşınan seçki qutusu, 157 ədəd daşınmaz seçki qutusu və 98 ədəd ultrabənövşəyi lampalar vardır.

Dairə seçki komissiyası 20 İ.Ə.D-si üzrə nümayəndəlik, 17 bələdiyyənin ərazisində yaradılan 48 seçki məntəqəsini əhatə edir. O, cümlədən Hacıqabul rayonu üzrə 18 İ.Ə.D-si üzrə nümayəndəlik, 15 bələdiyyə və 41 seçki məntəqəsini əhatə edir. Kürdəmir rayonu üzrə 2 İƏD-si üzrə nümayəndəlik, 2 bələdiyyənin ərazisində yaradılan 7 seçki məntəqəsini əhatə edir.

Seçki dairəsi üzrə seçicilərin siyahısı tam dəqiqləşdirilmişdir. Seçici siyahıları dəqiqləşdirilən zaman yol verilmiş orfoqrafik səhvlər aşkar edilmiş, 65 nəfər qeydiyyatdan çıxanlar, 110 nəfər vəfat edənlər, 108 nəfər hərbi xidmətə göndərilənlər seçici siyahısından çıxarılmış, eyni zamanda 148 nəfər yeni qeydiyyata düşənlər, 131 nəfər hərbi xidmətdən tərxis olunanlar, səsvermə gününə 18 yaşı tamam olan 204 nəfər o, cümlədən Hacıqabul rayonu üzrə 185 nəfər, Kürdəmir rayonu üzrə 19 nəfər seçici siyahısına əlavə edilmişdir. Seçici siyahıları hazırlanan zaman müvafiq icra orqanları, rayon Polis Şöbəsinin Q və ŞVQ, rayon Qeydiyyat Şöbəsi, səfərbərlik və hərbi Çağırış Hacıqabul rayon şöbəsi, seçki dairəsinin ərazisində yerləşən N saylı h/hnin rəhbərliyi ilə yaxından və mütamadi olaraq əlaqə saxlanılmışdır.

Seçki dairəsinin Hacıqabul rayonu üzrə əhatə etdiyi məntəqələrdə 80-100 yaşlılar 867 nəfər, 100 yaşdan yuxarı 5 nəfər seçicinin olduğu müəyyən olunmuşdur. Seçici siyahılarının tam dəqiqləşdirilməsi zamanı seçki dairəsi üzrə seçicilərin ümumi sayının 45200 nəfər olduğu müəyyən edilmişdir ki, o, cümlədən Hacıqabul rayonu üzrə 39920 nəfər, Kürdəmir rayonu üzrə 5280 nəfər olmuşdur.

Məlumat üçün bildirirəm ki, hər bir məntəqəyə məntəqələrin tanınma lövhəsi, Təşviqat lövhəsi, seçici siyahıları üçün 6-8 ədəd lövhə, məlumat lövhəsi, 2 ədəd dövlət bayrağı, dövlət gerbi, 4-12 ədəd səsvermə kabinəsi, seyf, generator, 4 ədəd elektrik qızdırıcısı - radiator, telefon aparatı, 3 ədəd kreslo, 4 ədəd iş stolu, komissiya üzvləri və müşahidəçilər üçün 14 ədəd stul verilmişdir. Daşınan və daşınmaz seçki qutuları seçki məntəqələrinə verilmişdir.

Seçki dairəsinin əhatə etdiyi bütün seçki məntəqələrində o, cümlədən səsvermə otağında və digər otaqlarda normal iş şəraiti yaradılmışdır. Bütün seçki məntəqələri səsvermə gününə tam hazır vəziyyətə gətirilmişdir. Məntəqələrdə lazım olan telefon - rabitə, fasiləsiz enerji təminatı və digər kommunikasiya işləri aparılmışdır.

***(davamı səh. 2-də)***

# Seçkilərə hazırlıq işləri davam edir

(əvvəli səh. 1-də)

Seçki praktikasının təkmilləşdirilməsi ilə əlaqədar olaraq rayon mərkəzində 8 məntəqə - 1, 2, 3, 4, 5, 8, 9 və 11 saylı məntəqələrdə veb-kameraların qurulması prosesi başa çatmışdır.

Məntəqələrdə seçki sənədlərinin bülletenlərin, protokolların və Qeydiyyatdançıxma (səsvermə) vəsiqələrinin saxlanıldığı otaqlara dəmir barmaqlılar vurulmuşdur. Seçki məntəqələrində yanğından mühafizə xidmətinin yaxşılaşdırılması, seçki məntəqələrinin yerləşdiyi binalarda təhlükəsizliyin gücləndirilməsi , seçki sənədlərinin qorunması, elektrik enerjisi və qaz təminatının təmin edilməsi, səhiyyə xidmətinin yaxşılaşdırılması məqsədi ilə rayon Polis şöbəsinə, FHN-nin Hacıqabul rayon yanğından mühafizə hissəsinə, Paylayıcı Elektrik Şəbəkəsinə, MRX-nın rəhbərliyinə və "Azəriqaz" Hacıqabul rayon şöbəsinin rəhbərlərinə məktubla müraciət olunmuş və seçki məntəqələrinin yerləşdiyi ünvan və binaların Dislokosiyası göndərilmişdir.

Seçki Məcəlləsinin 48-ci maddəsinə uyğun olaraq seçicilərin seçici siyahıları ilə tanış olunması və əlavə dəqiqləşdirmələr aparılması üçün seçici siyahıları səsvermə gününə 35 gün qalmış, səsvermə otağından kənarda seçicilərin yaxşı görə biləcəyi yerlərdə məlumat lövhələrində yerləşdirilmişdir.

MSK-nın təsdiq etdiyi Təqvim Planına uyğun olaraq Azərbaycan Respublikasının MSK-dan Prezident seçkiləri ilə əlaqədar lazım olan bütün avadanlıqlar: o cümlədən 36 adda müxtəlif formalı Plakatlar, Təqvim Planı, MSK-nın Təlimat, Qayda və İzahları - I, II, III, IV, V, VI, VII, VIII, IX, X, XI hissələr alınmış və bütün seçki məntəqələrinə paylanmışdır.

Seçkiqabağı təşviqatın aparılması və kütləvi tədbirlərin keçirilməsi ilə əlaqədar olaraq bütün seçki məntəqələrinin ərazisində Azərbaycan Respublikası Seçki Məcəlləsinin 11, 74, 75.2, 86.1, 86.3, 86.7 və 87.6-cı maddələrinə uyğun olaraq seçkiqabağı təşviqat materiallarının lövhələrdə yerləşdirilməsi üçün DSK-nın təklifi və Hacıqabul rayon İcra Hakimiyyəti Başçısının 19.02.2018-ci il tarixli 15 saylı sərəncamı ilə müvafiq yerlər müəyyənləşdirilmişdir. Eyni zamanda qeydə alınmış namizədlər, siyasi partiya, siyasi partiya bloklarının səlahiyyətli nümayəndələrinin, onların vəkil edilmiş şəxslərinin seçicilərlə görüşlərinin keçirilməsi üçün «Sərbəst toplaşmaq azadlığı haqqında» Azərbaycan Respublikasının Qanununa müvafiq olaraq rayonun şəhər, qəsəbə və kəndlərində açıq və qapalı yerlər müəyyən edilmişdir.

Hal - hazıra kimi seçki dairəsi üzrə 396 nəfər müşahidəçi qeydə alınmışdır. O, cümlədən Hacıqabul rayonu üzrə 42 nəfər YAP, 42 nəfər QHT-rı və 253 nəfər öz təşəbbüsü ilə, cəmi 337 nəfər seçki məntəqələrində müşahidə aparmaq üçün qeydiyyata alınmışlar.

Seçki Məcəlləsinin tələbinə uyğun olaraq 58 saylı Hacıqabul-Kürdəmir DSK-sı aşağı seçki komissiyalarının üzvlərinin təlimatlandırılması ilə əlaqədar treninqlərin təşkil olunmasını və onların peşə hazırlığı üzrə digər proqramların mütəmadi olaraq həyata keçirilməsini təmin edir. İnsan hüquqlarının müdafiəsi sahəsində görülən tədbirlərin genişləndirilməsi məqsədi ilə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin «Azərbaycan Respublikanda insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində Milli Fəaliyyət Proqramı" 2011-ci il dekabrın 27-də verdiyi 1938 saylı sərəncama əsasən və Təqvim Planına uyğun olaraq 58 saylı Hacıqabul-Kürdəmir DSK-sında 19-21 fevral 2018-ci il tarixlərində DSK üzvləri və MnSK-nın sədrləri üçün ixtisaslaşdırılmış kurslar keçirilmişdir. Həmin kurslarda MSK-nın nümayəndələri, DSK-nın sədri, rayon İcra hakimiyyətinin nümayəndəsi, rayonun hüquq mühafizə orqanlarının rəhbərləri iştirak etmişlər. Onlar Prezident seçkiləri ilə əlaqədar və Seçki Məcəlləsinin müvafiq maddələri əsasında məruzə etmiş və MnSK-nın sədrlərini maraqlandıran suallara ətraflı cavablar vermişlər.

2018-ci il aprelin 11-nə təyin edilmiş Azərbaycan Respublikası Prezidentinin seçkiləri ölkəmizin ictimai-siyasi həyatında böyük tarixi hadisədir.

Ümid edirik ki, Prezident seçkiləri seçki dairəmizin əhatə etdiyi bütün seçki məntəqələrində azad, demokratik, ədalətli və şəffaf şəkildə keçiriləcəkdir.

***Məhəmməd Hacıyev,***
***58 saylı Hacıqabul-Kürdəmir DSK-nın sədri***

# Sözə məsuliyyət hissi ilə yanaşanda....



***Hər bir insanın ürəyində sirli-sehirli duyğuların dilsiz poeziyası var. Bu duyğuları sətirlərə çevirənlər, ətə-qana doldurub misralarda canlandıranlar şair, saz, könül adamı adlanır. Hər şair dünyaya, təbiətə, gözəlliklərə öz baxış bucağından yanaşır, onları öz prizmasından görür və təqdim edir. Bu baxımdan əvvəllər özünün sanballı publisist yazıları ilə respublika mətbuatında ardıcıl çıxışlar edən Eyvaz Həsənlinin poeziyaya gəlişi heç də təsadüfi sayılmır. Bu yaxınlarda onun "Atamla söhbət" ilk şerlər kitabı çapdan çıxmışdır.***

Eyvaz Həmid oğlu Həsənli 1958-ci il fevralın 21-də Hacıqabul rayonunun Paşalı kəndində anadan olub. 1981-ci ildə Bakı Dövlət Universitetinin filologiya fakultəsini bitirib. Eyvaz müəllim 1981-ci ildən şəhid Ayaz Baxşəliyev adına Şorbaçı kənd tam orta məktəbində işləyir, bir müddət kənd məktəbinin direktoru olub. Yaradıcılığa tələbəlik illərindən başlayıb. Muxtəlif mətbuat orqanlarında o cümlədən "Hacıqabul" qəzetində publisist yazıları, məqalələri və şerləri çap olunub. Paşalı Eyvazın müxəlif mövzulara həsr olunmuş şerlərini nəzərdən keçirirəm, sətirlərdən heç kimi təkrarlamayan söz adamının duyğu və düşüncələri boylanır. "Atamla söhbət" şerində Eyvaz atasını vaxtsız itirən bir övlad kimi özünün keçirdiyi sarsıntıları ata həsrətindən doğan kədəri,qəmi özünəməxsus şəkildə kövrək notlarla qələmə almışdır:

Eyvaz Həsənli qürur hissi duyduğu doğma Paşalı kəndinə həsr etdiyi "Paşalı" şerindən dağlar qoynunda yerləşən kəndin real mənzərələri canlanır, kəndin təbii ətri, xoş rahiyyəsi duyulur.

Göy üzünə səpələnmiş ulduzlara bənzər,
Köhnəli, təzəli evlərin.
Qaranlığa bürünmüş gecələrinlə,
Günəş saçaqlarını yuyan gündüzlərinlə
Yox bənzərin.
Qaralmış sifətləri, qabarlı əlləri,
Nimdaş paltarları ilə
Qadınlarının da, kişilərinin də
Ürəyi safdır, təmizdir

Paşalara layiq kəndsən.
Qalıb səndə yaşamalı,
Ömür sürüb yaşlanmalı,
Görənləri əsir edən almayanaq qızların
Canalıcı baxışıyla
Inək sağar, yuxa yayar, xalça toxuyar
Göz oxşayan naxışıyla.

Eyvaz müəllimin məhəbbətin ülviliyini , saflığını, onun insan qəlbində oyatdığı xoş duyğuları tərənnüm edən silsilə şerləri var. "Məhəbbət belə olmur..." şerinə diqqət yetirək:

Məhəbbət belə olmur....
Qorxu bilməz heç nədən, yandırar yaşıl işıq,
Ilk görüşün ləzzəti bütün ömrə yaraşıq.
Gündə yüz yol küsüşmə, yüz bir yolsa barışıq,
Sevgi, eşq,vəfa,ilqar,razılıq,əhd qarışıq
Məhəbbət belə olmur....

Ilk şer kitabının çapdan çıxması və anadan olmasının 60 illik yubileyi münasibətilə Paşalı Eyvaz-Eyvaz Həmid oğlu Həsənlini ürəkdən təbrik edir, ona yeni yaradıcılıq uğurları arzu edirik.

***Nazim Fətixanoğlu***

# Tarixin yaddaşına qanla yazılmış gün-Azərbaycanlıların soyqırımı günü




***Azərbaycanın tarixində faciəli, qanlı-qadalı günlər çox olub. Xalqımızın həyat salnaməsini vərəqlədikcə əsrlər boyu başımıza gələnlərin şahidinə çevrililik, əcdadlarımızın, ata-babalarımızın zaman-zaman düçar olduqları bəlaları göz önünə gətiririk. Yüz illər boyu Azərbaycan xalqına qarşı davam etmiş erməni dəhşətləri 1918-ci ilin martında özünün pik nöqtəsinə çatdı.***

1918-ci ilin 31 mart günü azərbaycanlılar erməni daşnakları tərəfindən kütləvi surətdə soyqırıma məruz qalmışdır. 1918-1920-ci illərdə ermənilər tərəfindən törədilmiş qırğınların Bakı, Quba, Lənkəran, Şamaxı, Kürdəmir, Zəngəzur, Naxçıvan Hacıqabul və digər bölgələrdə davam etdirilməsi nəticəsində on minlərlə azərbaycanlı ən qəddar üsullarla qətlə yetirilib, minlərlə insan öz doğma torpaqlarından didərgin düşüb, evlər dağıdılıb, talan edilib, yandırılmışdır.

31 mart, 1-2 aprel Bakı qırğınları zamanı erməni quldur dəstələri üç istiqamətə bölünərək Azərbaycanın bütün bölgələrinə səpələnmiş, kütləvi qırğınlar törətmişlər.

Həmin dövrdə Hacıqabulun ərazisində yerləşən 17 kənddə də qırğınlar törədilmişdir. Rayonun Navahı kəndində 955 nəfər, QubalıBaloğlan kəndində 535 nəfər, Rəncbər kəndində 137 nəfər, Padar kəndində 120 nəfər, Abdulabad kəndində 90 nəfər, Şorbaçı kəndində 50 nəfər, Meyniman kəndində 45 nəfər, Paşalı kəndində 40 nəfər, Xilə kəndində 11 nəfər insan ən qəddar üsullarla qətlə yetirilmişdir. İnsanlara külli miqdarda maddi və mənəvi ziyan vuruldu, evləri talan olundu, yandırıldı, heyvanları məhv edildi, ermənilər tərəfindən aparılmışdır.

Böyük itkilərə, dağıntılara məruz qalan kəndlərdən biri də bizim QubalıBaloğlan kəndi olub. Kəndin 250-si kişi, 150-si qadın, 135-i uşaq olmaqla 535 sakini qətlə yetirilmişdir.

QubalıBaloğlan kəndi uğrunda gedən döyüşlərdə azərbaycanlılara köməyə gəlmiş Qafqaz İslam Ordusunun 12 əsgəri də qəhrəmanlıqla şəhid olub. Onlardan 6 nəfəri azərbaycanlı döyüşçülər ilə bu kənddə torpağa tapşırıldı.

Kənd sakini Kərbəlayi Hənifə yaxşı tanıdığı bu əsgərləri öz həyətində dəfn etmiş və uzun illər qoruyub saxlamışdır. Sonralar qızı Nigar Hənifəyeva məzarlığı bu günümüzə kimi qoruyub saxlamışdır.

2016-cı ilin sonlarında Türkiyə səfirliyinin maliyyə dəstəyi ilə Nigar xanımın həyətində olan şəhid məzarlığında möhtəşəm bir abidə ucaldıldı.

2017-ci ilin mart ayının 31-də abidənin açılış mərasimi keçirildi. Mərasimdə Türkiyə Respublikasının ölkəmizdəki böyük elçisi Erkan Özoral, xanımı, səfirliyin əməkdaşları, hərbi müşavirlər, Hacıqabul rayon İcra Hakimiyyətinin Başçısı Əhməd Muxtarov, rayon ictimaiyyətinin nümayəndələri iştirak edirdilər.

Abidə bu gün Türkiyə-Azərbaycan dostluğunun parlaq rəmzinə çevrilmişdir.

***Mircəfər Əsgərov,***
***QubalıBaloğlan kənd bələdiyyəsinin sədri***

# Kitabsız ev ürəksiz bədəndir

***Hər bir insanın özünü dərk etdiyi gündən ilk dostu onun birinci kitabıdır.***

Məşhur rus yazıçısı M. Qorkinın sözləri ilə desək "Kitab insanda görmədiyim, bilmədiyim cəhətləri mənə sübut etmək qüdrətinə malikdir" və "məndə olan bütün yaxşı keyfiyyətlərə görə kitablara borcluyam".

Bununla bərabər demək istərdim ki ədəb-ərkan qaydalarını, gözəl maneraları öyrənmək üçün kitablara müraciət etmək olar. Kitabları oxuduqca insan oradakı ideala doğru addımlayır, özünü təkmilləşdirir, mənfi xasiyyətləri ni unutmağa və pis vərdişlərdən əl çəkməyə çalışır.

Gəlin əvvəl kitabların tarixinə baxaq. Qədim tariximizi özündə əks etdirən ulu babalarımızın əlinin hərarəti, izləri qalan kitablar bu gündə bizim üçün keçmişimizi araşdırmağa dəyərli bir yazı mənbəyidir. Şifahi xalq ədəbiyyatından yazılı xalq ədəbiyyatına keçid kitabların yaranmasında rol oynamışdır. İnsan təfəkkürünün məhsulu olan kitabın yaranmasında bir sıra amillər mühüm rol oynamışdır. Əlifbanın və yazının meydana gəlməsi ilk amillərdəndir.

(davamı səh. 8-də)

# 58 SAYLI HACIQABUL-KÜRDƏMİR SEÇKİ DAİRƏSİ ÜZRƏ SEÇKİ MƏNTƏQƏLƏRİNİN D İ S L O K A S İ Y A S I

| Məntəqələrin nömrəsi (ardıcıllıqla) | Seçki məntəqələrinin yerləşdiyi yer (ünvan) və binanın (otağın) nömrəsi | Binanın və otağın nömrəsi | Seçki məntəqəsinin hüdudları.(seçki məntəqəsi yaşayış məntəqəsinin, bir hissəsini əhatə etdikdə evlərin nömrələri nəzərə alınmaqla küçələrin adları göstərilir) | Seçicilərin sayı | Məntəqə seçki komissiyası sədrinin soyadı, adı atasının adı. | İş yeri, tutduğu vəzifə | Telefon nömrələri | |
|---|---|---|---|---|---|---|---|---|
| | | | | | | | Seçki məntəqəsi | Ev, mobil |
| 1 saylı seçki məntəqəsi | Hacıqabul şəhər 1 saylı tam orta məktəb binasının qərb tərəfi Xətai küçəsi-6 | Bina -6 Otaq -3 | **Nəsimi küçəsi: bina** – 1. ev – 1-16; bina –2, 2a, 3 ev – 1- 16, bina – 4 ev – 1 -16, bina – 5,6,7, 7/2,8,10,12, 14,16,18,18A,20,22,24,26,26A,28,3032,34,34A,36,38, 40-58, 42,42A,44,52,54,56,60,68,92,100; **Şirvan küçəsi: ev–** 1-6,6A,7-90; **S.Almazov küçəsi:ev-**2-77; **N.Tusi küçəsi: ev** – 6, 9,10,34,36,38,40,50,54,55,56 **Xanlar küçəsi: ev–** 4-6, 6a, 7-28,28a,29-34,34a,36,38, 38A,38B,40-42, 42A,44, 44a, 44b,46,46a,48; **Dədə Qorqud küçəsi: ev**–1,5,7, 11,12,14,15,17,23,26,28, 33,34,35,37,39,40, 41; **Savalan küçəsi: ev** –10-20, 20A; **Ü.Hacıbəyov küçəsi:** ev 7a, 12a, 17a, 20a, 34; **R.Behbudov küç.: ev-** 23; **A.Şaiq küçəsi: ev-** 3,6,7,18,26,27,34,56; **A.Dadaşov küçəsi: ev** -1,1/9; **Ə.Şıxlinski küçəsi: ev –** 2,4,5,7,9,11,13,14,15,16,20, 21,22,23,24,25,26,27,28,29,30,31,32,33,34,35,36,37, 38, 39,40,41,42,43,44,45,46,47,48,49,50,50a,54,61; **Bakıxanov küç:** 7,13,17,17a,18,20,21,22,23,24,25,35, 42, 43, 44, 45-75; **Ə.Həşimov küçəsi: ev–**1,2,4,5, 6, 8,9,11,13,16,18,20,23,24,26,27,30,32,34,36,37,38, 41,44,46,50-56; **Bakı küçəsi: ev–**3-22,35,35A,37,39, 45, 47,68,70,70A,70B,71,72,75,75a,76,80,80A;**Babək küçəsi: bina–**1. ev–1-15,bina–2.ev–2-20; bina–4.ev–1-20;bina–69 ev-16; **Xətai küçəsi:** bina – 2. ev–1-16;3/14,bina–4.ev–1-16; bina–6.ev–1-16;bina –6a.ev–1-6;bina–8.ev–1-16 bina –10 .ev–1 -16,12-38, 38A, 42-50,50A,52, 54,129; **V.Talıbov küçəsi:**-10,16, 28, 46, 66; **Dəmir yol binaları:** bina 53/5,66,66/4. bina 69, ev 1-17; **İ.Qayıbov küçəsi** – 1,1B,2,2A,4,4A; **M.Əsədov küçəsi**–2,10,18,20,22,28,46,52,62,64,78, 86; **N.Nərimanov küçəsi:** -5-11,16-22,28,36,40,48, 62,66; S.**Vurğun küçəsi** – 38,40,44,46,48; **M.Fizuli küçəsi**:-38,42,44,50; **H.Həmidov küçəsi**:-D/Ybina 69/7,69/8; **Koroğlu küçəsi:**-5,6,6A,12,14,16,18,34,48 **Şəhriyar küçəsi** – 32,36,40,54.72A; | 1449 | Ağamalıyeva Cəmilə Balaqardaş | İşləmir | 4-37-54 | 4-20-93 050 5141842 |
| 2 saylı seçki məntəqəsi | Hacıqabul şəhər 1 saylı tam orta məktəb binasının şərq tərəfi Xətai küçəsi-6 | Bina -6 Otaq -8 | **M.Əsədov küçəsi: ev –** 1-10,10a,12-14,14a,14b,15-20,20a, 22,24,24A,26-30,30a,32, 34,34A, 36,36A, 40, 40A,40B,42-48,48A,48B,48Q,50-56,56A,58, 58A,60, 62,62A,62B,64,66,66A,70,72,72a,74,74,A,76,76A,78, 78A,82-86,88,90,92,94,96,98,100,102,104; **N.Nərimanov küçəsi:ev** 2-9,9B,10-18, 18A,20,20A, 22-26, 26A,28,30,30A,32,34,36,36A,38-42,42A,44-54, 54A,56-68; **V.Talıbov küçəsi ev–**2, 2A, 3-18,18A, 20-28,28A,30,30A,30B,32-38,38A,40,42,44,44A, 46,48, 48A, 48B, 50-56,56A,58-72;**Koroğlu küçəsi:ev–** 1,2,2A,3,5,6,6A,6B,8,10,10A,10B,12,12A, 14,14A, 16, 16A,16B,18, 20,24,24A,28,28A,32, 34,36, 36A, 38,40, 40A,40B,42-68 ;**Fizuli küçəsi: ev–**8-18, 18A, 20,20A, 22,24,24A, 24B,24Q,26,26A, 26B,28, 30,30A, 30V, 30Q, 34,34A,34B,36,36A,38,38A,42-68; **N.Tusi küçəsi: ev–**1-6,6a,7-10,10A,12-24,24B,26, 28,28A, 30-36,36a,38-46,46a,48,50,50a,50b,50v; **Xətai küçəsi: ev**– 6/11,6/14,12,12A,14-38,38a,38b,42,42a, 44-50,50a,52,54; **S.Vurğun küçəsi: ev**–38, 40,42, 42A,44,44B,46, 48,49;**Şəhriyar küçəsi:ev–**1-74; **A.Bakıxanov küçəsi: ev** – 5-52; **İ.Qayıbov küçəsi: ev –** 2 ,2a, 4, 6,7; **Balıqçı qəsəbəsi ev-**1-20. | 1449 | Əliyev Rahim Ağalar | İşləmir | 4-39-32 | 4-34-52 051 4126272 |
| 3 saylı seçki məntəqəsi | Hacıqabul rayon Mədəniyyət evinin binası H.Əliyev küçəsi – 1 | Bina -1 Otaq -2 | **H.Həmidov küçəsi:D/Y bina –** 1.ev –1-20;bina–2. ev–1-11; bina – 3. ev – 1-4; bina – 4. ev – 1-27; bina–5. ev– 1-16; bina– 6. ev– 1-20; bina– 7. ev– 1-20; bina – 8. ev -1-6; bina – 10. ev – 1-4; D/Y-11, -D/Y-19,D/Y19/4, D/Y-20- D/Y62, bina–65.ev-12; bina -66. ev–1-4; bina– 67.ev–1-12; bina–68. ev–1-12; bina–104. ev–1-6; ev–112-142, 142a, ev–143-148,148A, 149-154, 154A,155,155A,156,157,157A,158-167,167a 168,168A,169,169A,170,172,172A,174,176,176A,180, 184,184A,186. **Ə.Vahid küçəsi: D/Y bina –** 20-D/Ybinası-59,59A,59B, D/Y bina 60-D/Y bina-69, D/Ybina-98, **H.Aslanov küçəsi: bina –1.** ev–1-12, 2,3; bina–3.ev–3-5,4-7,7A,8-39; **B.İbrahimov küçəsi:** bina –1. ev–1-6; bina – 2. ev–2-10; **N.Allahverdiyev küçəsi: ev –**1-3,3a,4,5, 5a,6-9, 9a,10-17,17a,17b,19, 19a, **Hərbi şəhərcik: ev** – 50-54; **Neft ötürüsüsü küçəsi**:- bina–1,ev–1-20, bina–2, ev–1-5, bina – 5, ev-1 bina–3 ev– 1; **Təbriz küçəsi** – D/Y binası-67 | 1380 | Quliyev Ağalar Balaqardaş | Hacıqabul rayon Dəmiryol Ambulatoriyası MMC Baş həkim | 4-22-63 | 4-38-83 050 3221077 |
| 4 saylı seçki məntəqəsi | Hacıqabul şəhər 2 saylı tam orta məktəbin binası | Bina -15 Otaq -2 | **H.Z.Tağıyev küçəsi:** bina – 71/1,71/2,72/1, 83-103,103A,104-107, 107a, 107b, 109-230; **Ə.Vahid küçəsi: ev –** 1,1A,2,3,3A,4,5,5B,6, 7,7B,8,9,11,12, 12A,13-34,34A,36-79,79/2,79/3,80A,82 ,83,83a, 83b, | 1226 | Heydərov Hacıbədəl Heydər | Hacıqabul şəhəri 2 saylı tam orta məktəb direktor müavini. | 4-37-70 | 050 4327535 |

| | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| | Ə.Vahid küçəsi -71 | | 84,84a, 85-107,107A,108-111,111A,112,112A,113-117,117A,118—148,148A,150,150A,152,152A,154-168; **M.Gəncəvi küçəsi: ev –**1,1A,3,3A,4-20; 26a, **B.İbrahimov küçəsi: ev** –.1, 1a, 2-11,11a,11b,13-26, 27-34, 34a, 35,35a 36-48,48A,49, 49A, 51-58,87; **M.B.Nadim küçəsi: ev –** 1-15,15A,16-19,19A,20; **Hərbi şəhərcik: ev**–5; **H.Həmidov küçəsi**:4a,7,13,76, 83a,213-217,**H.Əliyev küçəsi**:13-36,38,**M.Rəsulzadə küçəsi**: 122-130, 132-150,153-167, 215-223, 225. | | | | | |
| 5 saylı seçki məntəqəsi | Hacıqabul şəhər 9 saylı tam orta məktəbin binası A.Abdullayev Küçəsi -10 | Bina -10 Otaq -6 | **M.Ə.Rəsulzadə küçəsi: ev-** 1, 26, 28, 102-239; **20yanvar küçəsi: ev**–1-13,13a,13b,14,15-48,48a,49, 50, 51; **H.Əliyev küçəsi: ev –** 2, 6, 15-43 **İ.Qayıbov küçəsi**: bina – 1.ev –1-16, 2, 3, 3a, 4, 5, 5a,5B, 5Q, 5D,6-9,9A,10-18,18A,20-38; **Hərbi şəhərcik:** ev 1/1-1/35, 2/1-2/30, 3/2-3/35, 4/1-4/34, 5/2-5/35, 6, 6/7-6/17, 7/2-7/35, 8/1-8/32, 9/4-9/14, 10/3-10/10, 11/9-11/44, 12/4-12/43, 13/5-13/59, 14/1-14/25, 15/1-15/30, 16/1-16/21, 17/2-17/16, 18/2-18/36, 20/2-20/22, 21/6-21/10, 22/1, 26/25, 27/2, 28/1-28/18, 29/2, 30, 31/1, 32/1, 34/1, 35-44, 47/1, 47/2, 48/1. | 1349 | Əliyev Elbrus İsbal | Hacıqabul şəhəri 9 saylı tam orta məktəb direktor. | 4-40-22 | 050 6482942 |
| 6 saylı seçki məntəqəsi | Hacıqabul şəhər 3 saylı tam orta məktəb binasının şərq tərəfi İ.Məmmədov küçəsi – 11. | Bina -11 Otaq -12 | **İ.Məmmədov küçəsi: ev** – 1, 2, 3, 3Q, 4-15,15A, 16-39, 39Q, 40-150; **X.Məmmədov küçəsi: ev –** 1-21, 21A, 22-33; **Hüseynbala Əliyev küçəsi: ev** – 1-40; **X. Natavan küçəsi: ev**–1-25,112,150 **M.F.Axundov küçəsi: ev –** 1-10, 12-19, 19a, 20-32, 34, 35a, 36-39, 41, 42, 44-47, 47a, 48-68, 68a, 69-74, 74a, 76-83, 83a, 84-92, 92a, 93,93a,94,94a, 95-86, 88-96,98-150. | 1165 | Qubadov Rəhim Bəbir | Hacıqabul şəhəri 3 saylı Elektrik Təchizatı İdarəsi rəis | 4-49-42 | 050 3432765 |
| 7 saylı seçki məntəqəsi | Hacıqabul şəhər 3 saylı tam orta məktəb binasının qərb tərəfi İ.Məmmədov küçəsi – 11. | Bina -11 Otaq -6 | **M.P. Vaqif küçəsi: ev –** 1, 1a, 2-48, 48a, 49-114; **Y.Şirəliyev küçəsi: ev –** 1-29; **M.Müşviq küçəsi: ev –** 1-199; **M.S.Ordubadi küçəsi: ev** – 1-35, 35A, 37, 38, 39; **M.F.Axundov küçəsi: ev –** 1-55, 56-97; **M.Əliyev küçəsi** – 1-36, 61-129, 347; | 1054 | Nəbiyeva Zeynəb Nəsir | Hacıqabul şəhər 3 saylı tam orta məktəb direktor | 4-33-77 | 4-25-84 055 2706439 |
| 8 saylı seçki məntəqəsi | Hacıqabul şəhər 6 saylı tam orta məktəb binasının şərq tərəfi Ə.Vahid küçəsi-55 | Bina -55 Otaq -4 | **H.Həmidov küçəsi: ev** – 1, 1a, 2, 2a,2b,3,4,4a,5,5a, 5b,6-12,12a,13,13a,14-16,16a,16b,17-20,20a,20b,21-32,32a,32b,33-35,35a,36-38,38a,39-41, 41a,42,43,43a,44-53,53a,54-59,59a,60-67,67a,68-78,78a,79-83, 83a, 83b, 105, 200-230; **Ə.Vahid küçəsi:** D/Y-26A, D/Y-28, 1, 1B, 2-104, 6A-102A, 12B-94B, 42V; **H.Z.Tağıyev küçəsi: ev** – 1,1a,2,3,3a,3B,3v,4,5,5a, 5b,7,7a,7b,8-11,11A,12,12a,13,13a,14,14a,14b,14v,15,15A,16,17, 17a,18,19,19A,20-22, 22A, 23-26, 26a, 26b, 26v, 27-43, 28A-42A, 43V, 44-48A, 48b, 48v, 49-52, 52A, 52B, 52V, 53-55, 55A, 56-92, 58A-92A, 92V, 94-124,124A, 126-130, 130A, 132-140,189, 292, 144, 145, 146-195; | 1294 | Səfərov Allahverdi Abdulla | Hacıqabul şəhər 6 saylı tam orta məktəb direktor | 4-38-76 | 051 5548086 |
| 9 saylı seçki məntəqəsi | Hacıqabul şəhər 6 saylı tam orta məktəb binasının qərb tərəfi Ə.Vahid küçəsi-55 | Bina -55 Otaq -12 | **M.Ə.Rəsulzadə küçəsi: ev –** D/Y binası-46, 47, 48, 48/7, 49, 49/2-49/7, 50, 50/6, 52, 52/1-52/7, 53-63, 1, 1A, 1q, 1c, 2, 2a, 2B, 3, 4, 4a, 5, 7, 7a, 8, 8a, 9-11, 11a, 12, 13, 13A, 14, 14A, 15, 15-17, 17a, 18-33, 33A, 33B, 34-39, 39a, 39b, 40-48, 48A, 49, 50, 50A, 51-143, 52A-121A, 80Q; **A.Abdullayev küçəsi: ev –** 1-71, 72-162; **M.Hüseynzadə küçəsi:** D/Y binası 32-50, 1-177,1A-121A, 1B-47B, 11V-47V, 11Q-111Q; **Ə.Vahid küçəsi: bina** – D/Y-48, 48/4, 48/6, 52/7,57/7. **H.Həmidov küçəsi**: - D/Y-49/3, 49/5. **D/Y binaları:-** 37/2, 46/1-46/15, 47/1-47/22, 48/1-48/14, 49/1-49/7, 50/1-50/6, 51/1, 52/1-52/9, 55/1-55/7, 56/2-56/8, 57/1-57/8, 63/1-63/12, 64/2-64/7, 65/2, 67/3. | 1406 | Qafarov Rafiq Novruz | Hacıqabul şəhər Dəmir Yol Stansiyası rəis | 4-38-76 | 050 3268156 |
| 10 saylı seçki məntəqəsi | Hacıqabul şəhər 5 saylı tam orta məktəb binasının şimal tərəfi Xəqani Küçəsi – 86 | Bina -86 Otaq -14 | **C.Cabbarlı küçəsi: ev** – 1 -77, 14A, 14B, 16A, 16B; **S.Vurğun küçəsi: ev –**1-71, 1V, 1A,4A,6A,12A, 21A, 45A, 1B, 106, 135; **Xəqani küçəsi: ev –**1-84, 62A; **M.Əsədov küçəsi: ev** –1-5,7,9,15,17,19,21,23,25,27, 31-69, 71-105. **Hərbi şəhərcik: hərbi qulluqçular** | 1221 | Almazova Gülüstan Bulut | Hacıqabul şəhər 5 saylı tam orta məktəb direktor | 4-38-28 | 4-10-53 050 3307399 |
| 11 saylı seçki məntəqəsi | Hacıqabul şəhər 5 saylı orta tam məktəb binasının cənub tərəfi Xəqani küçəsi – 86 | Bina -86 Otaq -8 | **Xəqani küçəsi: bina – 1-99,** 53 ev – 1-8, bina - 54 ev -1-8; bina - 64 ev -1-8; bina - 66 ev -1-8; **D.Ağamalıyev küçəsi: ev** D/Y27, D/Y53, D/Y53/8, D/Y54, D/Y64–1 -6,6A,7-11,11a,12-14,14a,15,15a,17, 17a,17b,18-26,26a,26q,26d,27-30,30A,30D,31-34,34a 34b,35,35A,35B, 35V, 35Q, 36, 36A, 37-64, 175,176; **Nizami küç: ev**–1-28,11A-28A,11B-28B; **S.Vurğun küçəsi: ev**–1-53, 4A-26A; **H.Həmidov küçəsi: ev**–1, 161-208, 246, 266; **Bakı küçəsi: D/Y 8, ev** –1,1a,2-4, 4a,5-18,18a,19-26,26a,27-64**; H.Z.Tağıyev küçəsi: ev –**133-288, 157A, 226B, 738. **Hərbi şəhərcik: hərbi qulluqçular. D/Y binaları:-** 22,53/1- 53/8,54/1-54/8, 64/1-64/4,66/1-66/4; | 1370 | İbrəhimov Hüseyn İbrəhimxəlil | Hacıqabul şəhər 4 saylı tam orta məktəb direktor | 4-40-64 | 050 3356176 |
| 12 saylı seçki məntəqəsi | Muğan qəs. tam orta məktəb binasınınqərb tərəfi S.Qurbanov-23 | Bina -23 Otaq -7 | Muğan qəsəbəsinin mərkəzi yolunun sol tərəfindəki bütün fərdi yaşayış evləri daxildir. | 967 | Şirinov Nizami Ağaşirin | Muğan qəsəbə tam orta məktəb direktor | 63-3-41 | 050 3355719 |
| 13 saylı seçki məntəqəsi | Muğan qəs. tam orta məktəb binasının şərq tərəfi S.Qurbanov-23 | Bina -23 Otaq -11 | Muğan qəsəbəsinin mərkəzi yolunun sağ tərəfindəki bütün fərdi yaşayış evləri daxildir. | 1357 | Ağayeva Tamilə Mahmud | Fərdi təsərrüfatçı | 63-3-41 | 051 3681458 |
| 14 saylı seçki məntəqəsi | Qarasu kənd tam orta məktəb binasının qərb tərəfi | Otaq – 3 | Qarasu kəndinin mərkəzi yolunun sağ tərəfindəki bütün fərdi yaşayış evləri daxildir. | 895 | Fərəcov Teyyub Musa | Qarasu kənd tam orta məktəb müəllim | 7-01-13 | 050 3246987 |
| 15 saylı seçki məntəqəsi | Qarasu kənd tam orta məktəb binasının şərq tərəfi | Otaq – 8 | Qarasu kəndinin mərkəzi yolunun sol tərəfindəki bütün fərdi yaşayış evləri daxildir. | 754 | Abbasova Zərəngiz Məmməd | Qarasu kənd tam orta məktəb direktor | 7-01-13 | 055 4618229 |

| | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| 16 saylı seçki məntəqəsi | Padar qəsəbə tam orta məktəbin binası | Otaq–8 | Padar qəsəbəsindəki bütün fərdi yaşayış evləri daxildir. | 647 | Ələkbərov Ələsgər Ələkbər | Padar qəsəbə tam orta məktəb direktor | 6-01-13 | 050 3278593 |
| 17 saylı seçki məntəqəsi | Abdulabad kənd kitabxanasının binası | Otaq – 5 | Abdulabad kənd klubunun ərazisində olan bütün fərdi yaşayış evləri daxildir. | 1059 | İsgəndərov Eyyub Məzahir | Hacıqabul rayon Bitki Mühafizə Mərkəzi rəis | 68-1-00 | 050 3520862 |
| 18 saylı seçki məntəqəsi | Abdulabad kənd tam orta məktəbin binası | Otaq – 5 | Abdulabad kəndindəki məktəb ərazisində olan bütün fərdi yaşayış evləri daxildir. | 1072 | Həsənov Şamo Nəsir | Kür Regional Meşə Tingçilik Müəssisəsi direktor | | 051 6651185 |
| 19 saylı seçki məntəqəsi | Kolanı kənd tam orta məktəbin binası | Otaq–6 | Kolanı kəndindəki bütün fərdi yaşayış evləri daxildir. | 1355 | Əliyeva Arifə Ataxan | Kolanı kənd tam orta məktəb direktor | 68-1-10 | 050 5583412 |
| 20 saylı seçki məntəqəsi | Talış Kür Su Kəmərləri idarəsinin binası | Otaq–18 | Talış kəndindəki bütün fərdi yaşayış evləri daxildir. | 1191 | Cahangirov Kifayət Qaraxan | Hacıqabul REŞ-si nəzarətçi mühəndis | 67-3-45 | 050 5388976 |
| 21 saylı seçki məntəqəsi | Meyniman kənd tam orta məktəb binasının şərq tərəfi | Otaq–9 | I Meyniman kəndindəki bütün fərdi yaşayış evləri daxildir. | 1074 | Abdullayev Elman Rəhman | Meyniman kənd tam orta məktəb direktor | 65-2-73 | 050 3772846 |
| 22 saylı seçki məntəqəsi | Meyniman kənd orta tam məktəb binasının qərb tərəfi | Otaq–5 | II Meyniman kəndindəki bütün fərdi yaşayış evləri daxildir. | 413 | Nəhmədov Vahid Bilal | Talış Kür Su Kəmərləri İdarəsi mühəndis | 65-2-73 | 050 3859176 |
| 23 saylı seçki məntəqəsi | Meyniman kənd orta tam məktəb binasının II mərtəbəsi | Otaq–12 | Axtaçı-Şirvan kəndindəki bütün fərdi yaşayış evləri daxildir. | 427 | Qafarov Şirməmməd Ağaverdi | Şirvan şəh. Yüksək Gərginlikli Elektrik Şəbəkəsi mühəndis | 65-3-31 | 050 7483309 |
| 24 saylı seçki məntəqəsi | Ağacanlı kənd tam orta məktəbin binası | Otaq–2 | Ağacanlı kəndindəki bütün fərdi yaşayış evləri daxildir. | 252 | Bağırov Bilal Əliverdi | Ağacanlı kənd tam orta məktəb direktor | 61-2-71 | 055 9570859 |
| 25 saylı seçki məntəqəsi | Xilə kənd ümumi orta məktəbin binası | Otaq-4 | Ələtli və Bürvənd kəndlərindəki bütün fərdi yaşayış evləri daxildir. | 285 | Qənbərov Cahangir Gülağa | Xilə kənd ümumi orta məktəb direktor | 6-17-13 | 67-1-20 055 6244447 |
| 26 saylı seçki məntəqəsi | Navahı kənd Mədəniyyət evinin binası | Otaq–3 | Navahı kəndinin mərkəzi yolunun qərb hissəsindəki bütün fərdi yaşayış evləri daxildir. | 810 | Mustafayev Mərdan Mahmud | Navahı kənd Mədəniyyət evi müdir | 62-2-74 | 050 3622968 |
| 27 saylı seçki məntəqəsi | Navahı kənd tam orta məktəbin binası | Otaq–4 | Navahı kəndinin mərkəzi yolunun şərq hissəsindəki bütün fərdi yaşayış evləri daxildir. | 738 | Əliyev İbrahim Ağalar | Navahı kənd tam orta məktəb direktor | 62-2-00 | 050 5194438 |
| 28 saylı seçki məntəqəsi | Pirsaat qəsəbə tam orta məktəbin binası | Otaq–10 | Pirsaat qəsəbəsindəki bütün fərdi yaşayış evləri daxildir. | 603 | Kərimov Əlimövsüm Kərim | Pirsaat qəsəbə tam orta məktəb direktor | 61-4-13 | 050 5188960 |
| 29 saylı seçki məntəqəsi | Navahı qəsəbə 2 saylı orta tam məktəbin binası | Otaq–6 | Navahı qəsəbəsi, Navahı qəsəbəsindəki AES-də və Dəmiryol stansiyasının ərazisindəki bütün fərdi yaşayış evləri daxildir. | 1319 | Xəlilov Baba Əlibala | Fərdi təsərrüfatçı | | 051 7872000 |
| 30 saylı seçki məntəqəsi | Rəncbər kənd Mədəniyyət evinin binası | Otaq–1 | Rəncbər kənd Mədəniyyət evinin, Rəncbər kənd İ.Ə.V. üzrə nümayəndəliyin binasının ərazisindəki və Rəncbər kəndinin mərkəzi yolunun şimal hissəsindəki bütün fərdi yaşayış evləri daxildir. | 1021 | Salmanov Sübhəli Əlif | Rəncbər kənd tam orta məktəb müəllim | 64-2-13 | 070 9502321 |
| 31 saylı seçki məntəqəsi | Rəncbər kənd tam orta məktəbin binası | Otaq – 8 | Rəncbər kənd tam orta məktəbin, Rəncbər kənd Rabitə və Poçt şöbələrinin ərazisindəki bütün fərdi yaşayış evləri daxildir. | 974 | Rəhimov Əli Qulam | Fərdi təsərrüfatçı | 64-2-82 | 050 7297348 |
| 32 saylı seçki məntəqəsi | Qubalı-balaoğlan kənd tam orta məktəb binasının şimal tərəfi | Otaq–3 | Qubalıbalaoğlan mərkəzi yolunun şərq hissəısindəki bütün fərdi yaşayış evləri daxildir. | 888 | Əzizov Bahadır Ağahüseyn | Qubalı-balaoğlan kənd tam orta məktəb direktor | 66-1-13 | 070 2443519 |
| 33 saylı seçki məntəqəsi | Qubalı-balaoğlan kənd tam orta məktəb binasının cənub tərəfi | Otaq–5 | Qubalıbalaoğlan mərkəzi yolunun qərb hissəsindəki bütün fərdi yaşayış evləri və Pirsaatçay kəndindəki bütün fərdi yaşayış evləri daxildir. | 865 | İsmayılov Şirali Xanat | Qubalı-balaoğlan kənd tam orta məktəb müəllim | 66-1-13 | 070 3466918 |
| 34 saylı seçki məntəqəsi | Qızılburun kənd tam orta məktəbin binası | Ota –7 | Qızılburun kəndindəki bütün fərdi yaşayış evləri daxildir. | 681 | Əhmədov Azər Əzizağa | Qızılburun kənd tam orta məktəb direktor müavini | | 051 6651492 |
| 35 saylı seçki məntəqəsi | Atbulaq kənd tam orta məktəbin binası | Otaq – 5 | Ələt – Hacıqabul yolunun şimal hissəsində olan Atbulaq kəndindəki bütün fərdi yaşayış evləri daxildir. | 1211 | Hüseynova Aygün Rafiq | Atbulaq kənd tam orta məktəbində direktor əvəzi | 69-1-13 | 051 4796943 |
| 36 saylı seçki məntəqəsi | Kürçülü kənd ümumi orta məktəbin binası | Otaq – 5 | Ələt – Hacıqabul yolunun cənub hissəsində olan Kürçülü kəndindəki bütün fərdi yaşayış evləri daxildir. | 864 | Dadaşov Rasim Qədir | Kürçülü kənd ümumi orta məktəb direktor | | 206-92-13 050 4160781 |
| 37 saylı seçki məntəqəsi | Şorbaçı kənd tam orta məktəbin binası | Otaq–12 | Birinci Paşalı, İkinci Paşalı və Şorbaçı kəndlərindəki bütün fərdi yaşayış evləri daxildir. | 1002 | Şükürov Camulla Günəş | Şorbaçı kənd tam orta məktəb müəllim | | 050 3768655 |
| 38 saylı seçki məntəqəsi | Udullu kənd tam orta məktəbin binası | Otaq–4 | Birinci Udullu kəndindəki bütün fərdi yaşayış evləri daxildir. | 1242 | Rzayev Eldar Məlik | Udullu kənd tam orta məktəb müəllim | | 051 3568944 |

| | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| 39 saylı seçki məntəqəsi | Tava kənd tam orta məktəbin binası | Otaq – 1 | İkinci Udullu kəndindəki bütün fərdi yaşayış evləri daxildir. | 979 | Həşimov Fikrət Həsən | Tava kənd tam orta məktəb müəllim | 61-5-13 | 050 7142755 |
| 40 saylı seçki məntəqəsi | Tağılı kənd tam orta məktəbin binası | Otaq – 6 | Tağılı kəndindəki bütün fərdi yaşayış evləri daxildir. | 257 | Cəfərzadə Elçin Əhməd | Tağılı kənd tam orta məktəb direktor | | 050 3357815 |
| 41 saylı seçki məntəqəsi | Qubalı kənd əsas məktəbin binası | Otaq – 3 | Qubalı kəndindəki bütün fərdi yaşayış evləri daxildir. | 355 | Tağıyev Nazim Fazil | Qubalı kənd əsas məktəb müəllim | | 050 4994595 |
| 42 saylı seçki məntəqəsi | Karrar kənd tam orta məktəb binasının şərqtərəfi | Otaq – 9 | Karrar kəndinin mərkəzi yolunun şərq tərəfindəki bütün fərdi yaşayış evləri daxildir. | 1029 | Səftərov Şiraz Yunis | Kürdəmir rayon Aqrar Elm Mərkəzi aqranom | 7-12-16 | 050 4522446 |
| 43 saylı seçki məntəqəsi | Karrar kənd tam orta məktəb binasının qərb tərəfi | Otaq – 3 | Karrar kəndinin mərkəzi yolunun qərb tərəfindəki bütün fərdi yaşayış evləri daxildir. | 759 | Rzayev Rza Qulaməli | Kürdəmir rayon Kür-Araz ətrafı suya nəzarıt mərkəzi mühəndis | 7-12-16 | 050 6135332 |
| 44 saylı seçki məntəqəsi | Ərşəli kənd tam orta məktəbin binası | Otaq–5 | Ərşəli kəndindəki bütün fərdi yaşayış evləri daxildir. | 582 | Orucov Əli Ağış | Ərşəli kənd tam Orta məktəb direktor | 71-3-59 | 050 6896189 |
| 45 saylı seçki məntəqəsi | Garis-Əyribənd kənd tam orta məktəbin binası | Otaq – 8 | Garis-Əyribənd kəndindəki bütün fərdi yaşayış evləri daxildir. | 575 | Omarov Mehman Kərəm | Garis-Əyribənd kənd tam orta məktəb müəllim | 044 2450032 | 050 7163574 |
| 46 saylı seçki məntəqəsi | Muğanlı kənd tam orta məktəbin binası | Otaq – 4 | Muğanlı kəndindəki bütün fərdi yaşayış evləri daxildir. | 622 | Piriyev Elmxan Ağaşəfi | Muğanlı kənd tam orta məktəb müəllim | 35-2-20 | 050 3879600 |
| 47 saylı seçki məntəqəsi | Xınıslı kənd tam orta məktəbin binası | Otaq – 5 | Xınıslı kəndindəki bütün fərdi yaşayış evləri daxildir. | 547 | Məmmədov İnqilab Barat | Xınıslı kənd tam orta məktəb direktor | 36-2-50 | 050 7928763 |
| 48 saylı seçki məntəqəsi | Karrar qəsəbə tam orta məktəbin binası | Otaq – 3 | Karrar qəsəbəsindəki bütün fərdi yaşayış evləri daxildir. | 1166 | Xanlarov Tərlan Zakir | Karrar qəsəbə tam orta məktəb müəllim | 38-2-86 | 050 6486240 |

# Hacıqabul rayonunda mal-qara və quşların uçotu başa çatmışdır

***Azərbaycan Respublikası regionlarının inkişaf etdirilməsi ölkədə uğurla həyata keçirilən davamlı sosial-iqtisadi inkişaf strategiyasının mühüm tərkib hissəsidir. 2004-cü ildən başlayaraq həyata keçirilən məqsədyönlü dövlət proqramlarının davamı olaraq, Azərbaycan Respublikası Prezidentinin 27 fevral 2014-cü il tarixli, 118 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı" nın icrası ölkədə iqtisadiyyatın, o cümlədən, qeyri-neft sektorunun dayanıqlı inkişafına, regionlarda sosial infrastrukturun və sahibkarlıq mühitinin daha da yaxşılaşdırılmasına təkan vermişdir. Bununla əlaqədar olaraq Hacıqabul rayonunda da kənd təsərrüfatı sahəsi üzrə müvafiq işlər və tədbirlər həyata keçirilir.***

Hacıqabul rayonunda aparılan aqrar islahatların uğurla həyata keçirilməsi kənd təsərrüfatının dinamik şəkildə inkişaf etdirilməsinə və bu sahədə ildən-ilə yüksək nailiyyətlər əldə edilməsinə möhkəm zəmin yaratmışdır.

Kənd təsərrüfatının rayonumuz üçün xarakterik iri sahələrindən biri də heyvandarlıqdır. 2017-ci ildə rayon ərazisində mövcud olan mal-qara əsas etibarilə əhali və fermer təsərrüfatlarında cəmlənmişdir. Rayonda mal-qaraya lazımi qulluğun təmin edilməsi işinə geniş imkan yaradılmış və son nəticədə malqaranın məhsuldarlığının artması müşahidə olunmuşdur.





01.01.2018-ci il tarixə aparılan uçot zamanı rayon üzrə iri buynuzlu mal- qaranın sayı 38798 baş olmuşdur. İri buynuzlu mal-qaranın baş sayı keçən ilin müvafiq dövrü ilə müqayisədə 0,9 faiz və ya 384 baş artmışdır. Rayonda mövcud olan mal-qaranın 1499 başı fərdi sahibkarlarda, 37299 başı isə ailə-kəndli və ev təsərrüfatlarında qeydə alınmışdır.

Rayon təsərrüfatlarında inək naxırının sayı 36577 baş, o cümlədən fərdi sahibkarlarda 1250 baş, ailə-kəndli və ev təsərrüfatlarında isə 35327 baş olmuşdur. Ötən illə müqayisədə rayonun təsərrüfatlarında inək naxırının sayı 1330 baş və ya 3,8 faiz artmışdır. Təsərrüfatlarda camış naxırının sayı 2221 baş, o cümlədən fərdi sahibkarlarda 249 baş, ailə-kəndli və ev təsərrüfatlarında isə 1972 baş olmuşdur.

İlin sonuna fərdi sahibkar təsərrüfatlarında qoyunların sayı 5289 baş, ailə-kəndli və ev təsərrüfatlarında 116828 baş, ümumilikdə isə rayon üzrə təsərrüfatlarda qoyunların sayı 122117 baş olmuşdur. Ötən ilin müvafiq dövrü ilə müqayisədə rayon təsərrüfatlarında qoyunların sayı 0,6 faiz və ya 762 baş artmışdır. Rayonda bütün təsərrüfat kateqoriyaları üzrə 14789 baş keçi qeydə alınmışdır ki, bunun da 14134 başı ailə-kəndli və ev təsərrüfatlarında, 655 başı isə fərdi sahibkarlardadır. Ötən ilin müvafiq dövrü ilə müqayisədə təsərrüfatlarda keçilərin sayı 188 baş və ya 1,3 faiz artmışdır. Rayon təsərrüfatlarında ümumilikdə xırda buynuzlu mal- qaranın sayı 136906 baş olmuşdur. Bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 950 baş və ya 0,7 faiz artım deməkdir.

Rayon üzrə təsərrüfatlarda atların sayı 634 baş, dəvələrin sayı 13 baş, eşşəklərin sayı 339 baş olmuşdur. Ötən illə müqayisədə müvafiq olaraq atların sayı 16 baş və ya 2,6 faiz çox, eşşəklərin sayı 75 baş və ya 24,8 faiz çox olmuşdur.

Rayonda bütün təsərrüfat kateqoriyaları üzrə quşların sayı 3798969 baş olmuşdur. Kənd təsərrüfatı müəssisələrində quşların sayı 3077999 baş olmuşdur ki, ondan da 1666759 başı yaşlı, 1411240 başı isə cavan quşlardır.

Fərdi sahibkarlarda quşların sayı 29818 baş, ailə-kəndli və ev təsərrüfatlarında isə 691152 baş olmuşdur. Ümumilikdə fərdi sahibkar, ailə və kəndli-fermer təsərrüfatlarında quşların sayı 720970 baş qeydə alınmışdır.

İlin əvvəlinə şəhər yerləri üzrə olan təsərrüfatlarda 8096 baş iri buynuzlu mal-qara, o cümlədən 3497 baş inək və camışlar, 31748 baş qoyun və keçilər və 121907 baş quşlar mövcud olmuşdur.

Rayon üzrə iri buynuzlu mal-qaranın 20,9 faizi, o cümlədən ana inək və camışların 21,3 faizi, qoyun və keçilərin 23,2 faizi, quşların 3,2 faizi şəhər yerlərində olan təsərrüfatlarda qeydə alınmışdır.

Rayon üzrə iri buynuzlu mal-qaranın 79,1 faizi, o cümlədən, ana inək və camışların 78,7 faizi, qoyun və keçilərin 76,8 faizi, quşların 81,0 faizi kənd təsərrüfatı müəssisələrinə, 15,8 faizi isə kənd yerlərində olan təsərrüfarların payına düşür.

Rayonda heyvandarlığın artım göstəriciləri əsasən əhalinin fərdi təsərrüfatları hesabına olmuşdur. Rayon üzrə heyvanların baş sayında müşahidə olunan artım heyvandarlıq sahəsindəki iqtisadi göstəricilərin, eləcə də kənd təsərrüfatı sahəsindəki ümumi məhsul buraxılışının artımına səbəb olmuşdur.

***Rayon Statistika İdarəsi***

# *Yurdumuza bahar gəlir. Xoş müjdəli, yaz ətirli, bin-bərəkətli Novruzun gəlişini bizlərə ərməğan edən bir fəsil gəlir. "Hacıqabul" bütün oxucularını qarşıdan gələn Novruz bayramı münasibəti ilə təbrik edir, onlara bahar təravətli günlər arzulayır.*

# *Bayramınız mübarək olsun!*



*Elimizin baharı, xalqımızın milli bayramı Novruzunuz mübarək olsun, əziz hacıqabullular!*

*Dostluq, barışıq, sülh, əmin-amanlıq, ruzi-bərəkət bayramı olan Novruzun gəlişi münasibəti ilə Sizləri təbrik edirik. Ocağınız isti, canınız sağlam, sabahlarınız xeyirli-uğurlu olsun.*

**Rayon Təhsil Şöbəsinin kollektivi**

***

*Hər bir azərbaycanlı üçün əziz olan, mənəvi dəyərlərimizi özündə yaşadan Novruz bayramının gəlişi münasibəti ilə bütün ailələri təbrik edirik.*

*Əziz hacıqabullular! Sizlərə bahar təravətli, məhəbbət dolu günlər arzulayırıq. Günləriniz bir-birindən xoş keçsin, ruzunuz bol, ocağınız isti, süfrələriniz min-bir naz-nemətlə dolu olsun.*

*Bayramınız mübarək!*

**Rayon Statistika İdarəsinin kollektivi**

***

*Bütün həmyerlilərimizi bahar bayramı münasibəti ilə təbrik edir, səadət, xoşbəxtlik dolu günlər arzu edirik. Qoy elimizdən-obamızdan hər zaman çal-çağır səsi eşidilsin.*

*Bahar təravətli Novruzunuz mübarək!*

**Rayon Mədəniyyət və Turizm Şöbəsinin kollektivi**

***

*Əsrlərin sınağından çıxmış milli-adət-ənənələrimizi özündə qoruyub nəsillərdən-nəsillərə ötürən tarixi bayramınız mübarək olsun, əziz hacıqabullular!*

*Saf niyyətlər, xoş arzular qismətiniz olsun. Novruz ocaqlarınıza istilik, həyatınıza nurlu sabahlar bəxş etsin.*

**Rayon Suvarma Sistemləri İdarəsinin kollektivi**

***

*Novruzun ətri artıq elimizdə-obamızda hiss olunur, sevimli həmyerlilərimiz!*

*Bahar ətirli, xoş ovqatlı bayramınız mübarək olsun. Bu bayram Sizlərə özü ilə bol ruzi-bərəkət, firavanlıq, xoş ovqat gətirsin.*

**Rayon Maliyyə İdarəsinin kollektivi**

***

*Bütün seçicilərimizi qarşıdan gələn bahar təravətli Novruz bayramı münasibəti ilə təbrik edirik. Daim dövlətə və dövlətçiliyə sadiq olmalarını, firavan, xoşbəxt həyat arzu edirik.*

**58 saylı Hacıqabul-Kürdəmir DSK-sı**

***

*Sakinlərimizi elimizin qədim ənənələri ilə zəngin olan Novruz bayramı münasibəti ilə təbrik edirik.*

*Oyanışın, canlanmanın rəmzi olan Novruz hər bir ailəyə problemsiz, qayğısız həyat bəxş etsin.*

*Bahar bayramınız mübarək, əziz hacıqabullular!*

**Rayon Baytarlıq İdarəsinin kollektivi**

***

*Həmyerlilərimizi Novruz bayramı münasibəti ilə təbrik edir, hər bir ailəyə xoşbəxt, firavan həyat arzulayırıq. Milli adət-ənənələrimizi özündə qoruyub saxlayan Novruz hamıya bahar təravətli günlər nəsib etsin.*

**Pirsaat Qış Otlaqlarının Su ilə Təminatı İstismarı İdarəsinin kollektivi**

***

*Elimizə-Obamıza bahar gəlir. Bu gözəl fəsil özü ilə bərabər Novruzu gətirir.Bahar ətirli Novruzun gəlişi münasibəti ilə hacıqabulluları təbrik edir, onlara bol ruzi-bərəkət, sevinc dolu günlər arzulayırıq.*

**Rayon Dövlət Arxiv İdarəsinin kollektivi**

***

*Türk dünyasının sevinclə qarşıladığı Novruzun gəlişi münasibəti ilə Hacıqabul sakinlərini təbrik edir, bütün ailələrə səadət dolu günlər, süfrənizə bol ruzi-bərəkət arzu edirik.*

*Gündən-günə inkişaf edən ölkəmizdə firavan həyat qismətiniz olsun.Baharın gəlişi ailələrinizə xoşbəxtlik nəsib etsin. Saf niyyətlər, xoş arzular daim sizinlə olsun.*

**Rayon Kənd Təsərrüfatı İdarəsinin kollektivi**

***

*Sağlamlığınızın keşiyində dayanan səhiyyə işçilərini, eləcə də bütün hacıqabulluları Novruz bayramı münasibəti ilə təbrik edir, sağlam həyat, firavanlıq arzu edirik.*

*Canınız sağlam, ruziniz bol, işləriniz avand olsun.*

**Rayon Mərkəzi Xəstəxanasının kollektivi**

***

*Rayon sakinlərini elimizin ən gözəl bayramı olan Novruz bayramı münasibəti ilə təbrik edir, bütün ailələrə məhəbbət dolu günlər, möhkəm ailə birliyi arzu edirik.*

*Xoşbəxt yaşayın, su qədər ömrünüz olsun, əziz hacıqabullular!*

**Rayon Su Kanal İdarəsinin kollektivi**

***

*Elimizin gözəl bayramı olan Novruzun gəlişi hamıya şən əhval-ruhiyyə bəxş edir. Bu əziz gündə hər bir ailəyə sevinc dolu günlər, bol ruzi- bərəkət arzu edirik. Qapılarınız hər səhər xoş müjdəli xəbərlərlə açılsın. Ocaqlarınız isti, süfrələriniz bol naz-nemətlə dolu olsun.*

*Bahar bayramınız mübarək olsun!*

**Rayon Poçtamtının kollektivi**

***

*Saf niyyətlər, xoş arzular bayramı olan Novruzun gəlişi elimizə-obamıza sevinc bəxş edir. Bu əziz gündə biz də xalqımızı, bütün hacıqabulluları təbrik edir, onlara səadət dolu günlər arzu edirik.*

*Qoy elimizdən-obamızdan bayramlar heç zaman əskik olmasın.İnsanlar daim gülər, şən, firavan ömür sürsün.*

**Rayon Mətbuatyayım idarəsinin kollektivi**

# HACIQABUL

◆ № 06-07 (686-687) 16 mart 2018-ci il


# Birlik, qardaşlıq bayramı

***Novruz əsrlərin dərinliyindən gəlib bizim günlərə çıxmış ən şən və gözəl bayramlardan biridir. Qədim İran şəmsi təqvimi ilə fərvərdin ayının birinci gününə, Qriqori təqvimi ilə mart ayının 21-22-nə və ya nadir hallarda 23-nə düşür. Ölkəmizdə Novruz bayramı bir çox türk və müsəlman ölkələrində, o cümlədən Orta Asiya respublikalarında və Azərbaycanda qeyd edilir. Bir çox tədqiqatçılar Novruzun yaranma tarixini, onun zərdüştlük və ya müsəlman mədəniyyəti ilə əlaqələrini araşdırmış, əski mənbələrdə bir-birini təkzib və ya təsdiq edən müxtəlif faktlar aşkar etmişlər. Lakin ümumi belədir ki, Novruzu konkret bir dinlə, etiqadla bağlamaq düzgün deyil. Qədim dövrlərdən bəri xalqımız Novruzu yeni ilin başlanğıcı hesab etmiş, onu bolluq, bərəkət və firavanlığın əzəli kimi rəmziləşdirmişdir.***

Novruz bayramını qeyd etmək təzə ili, baharın ilk gününü qarşılamaq deməkdir.

Novruz bayramının mənşəyi, onunla bağlı əsatirlər, miflər qədimdir. Tədqiqatçılar Novruz bayramının məhz yaxın şərqin qədim əkinçiliklə məşğul olan xalqlar arasında meydana gəldiyini söyləyirlər. Novruz bayramının ayrı-ayrı tarixi və əfsanəvi şəxsiyyətlərin (əfsanəvi İran şahları Kəyumərs (Avestada Qaye Mərdan), Cəmşid və başqaları) adı ilə bağlamağa çalışmışlar. İslam dini, Yaxın Şərq və Orta Asiya ölkələrində yayıldıqdan sonra Ərəb xilafəti bu ölkələrin xalqlarının adət-ənənələrini, bayramlarını təqib etməyə başladı. Əsrlər boyu dini xadimlər müxtəlif təriqət nümayəndələri bu bayramı təbii və tarixi köklərindən ayırmağa çalışmış, ona dini, mövhumu libas geyindirməyə cəhd göstərmişlər. Hətta bəzi din xadimləri belə bir fərziyyə uydurmuşlar ki, Novruz bayramı guya IV xəlifə Əlinin hakimiyyətə (656-661) gəldiyi günlə əlaqədardır. Halbuki İmam Əli iyul ayında hakimiyyətə gəlmiş, Novruz isə yazda bayram edilir. Əslində, xalqın bayramla əlaqədar keçirdiyi mərasimlər heç bir dini ehkamlarla bağlı deyildir. Əksər xalqlar bahar bayramının əsl mahiyyətindən doğan bir sıra adət-ənənələri , oyunları indiyədək saxlamışlar. Orta əsr müəllifləri şərq ölkələrində islam dini yayıldıqdan sonra da Novruz bayramında yaz ənənələrinin, əkinçilik təqvimi etiqadlarının möhkəm yer tutduğunu göstərirlər.



Novruz şimal yarımkürəsində astronomik yazın başlandığı, gecə-gündüz bərabərliyi günündə (martın 20, 21, 22-də) keçirilir. Bir sıra xalqlar yaz fəslinin gəlməsini təbiətin canlanması ilə bağlamış, bu münasibətlə şənliklər keçirmiş, onu yeni ilin başlanğıcı kimi bayram etmişlər. Qədim zamanlardan başlayaraq İran, Əfqanıstan, Tacikistan, Özbəkistan və bəzi başqa şərq xalqları ilə yanaşı azərbaycanlılarda baharın - yeni ilin gəlişini şənliklərlə qarşılayırdılar. Martın 21-i İran və Əfqanıstanda rəsmi təqvimin ilk günü sayılır. Novruz dünya xalqlarının bayramı kimi hər bir xalq bu bayramla bağlı etnik, yerli milli xüsusiyyətlərinə uyğun, özünəməxsus mövsüm nəğmələri, mərasim nəğmələri yaratmışdır. Ümumilikdə Novruz İranda, Qafqazda və Mərkəzi Asiyada çox təntənəli şəkildə qeyd edilir. Albaniyada Sultan Nevruz bayramı dini bayram kimi Bəktaşilik təriqətinin davamçıları tərəfindən qeyd edilir. Bu cür məkanlar arasında Los-Anceles, Toronto, Londonu saymaq olar. Los-Anceles şəhərinin ocaq qalamağa dair sərt qərarları var, heç bir kəsə öz mülkündə ocaq qalamağa icazə verilmir. Hətta buna baxmayaraq Cənubi Kaliforniyada yaşayan və Novruzu qeyd etmək istəyən iranlılar və azərbaycanlılar Kaliforniyanın çimərliklərinə gedir və ocaq qalamağa icazə verilmiş yerlərdə ocaq qalayırlar.

Novruz inanclarının əsasında insana, təbiətə həyat verən dörd ünsürün - Suyun, Odun, Yelin (havanın), Torpağın isinməsi, "dirilməsi" durur. Odur ki, Novruz şənlikləri təzə ilin başlanmasına, yəni martın 21-nə dörd həftə qalmış keçirilməyə başlayır. Bu aya Boz ay deyirlər. Həmin ayın hər çərşənbəsi təbiətin bir ünsürü ilə əlaqələndirilmiş və beləliklə, insanların təsəvvüründə ilaxır çərşənbələr yaranmışdır. Əski inamlara görə bu çərşənbələrin hər birində təbiətin dörd ünsüründən biri "dirilmişdir". İlin Novruzdan əvvəlki dörd axır çərşənbəsi müqəddəs sayılır. Bunlar Su çərşənbəsi, Od çərşənbəsi, Yel çərşənbəsi və Torpaq çərşənbəsi adlanır.

Birinci su çərşənbəsi adlandırılırdı. Yəni, bahara doğru çayların azacıq buz bağlayan yerləri əriyib çaylara tökülür. Torpaq yavaş-yavaş islanmağa başlayır. Qızlar bulaqlardan sərin, şirin su gətirərdilər, evin ətrafına çiləyərdilər, üzlərini yuyardılar.

İkincisi od çərşənbəsi adlanır. Ona görə ki, bahara doğru günəş yavaş-yavaş torpağı qızdırır, isindirir, onu yaratmaq üçün hazırlayır. Od çərşənbəsində tonqallar qalayardılar. Hər ailə üzvünün adına bir dənə şam yandırardılar. Xonçalar düzəldilərdi.

Üçüncüsü yel çərşənbəsidir. Bəzi bölgələrimizdə çox əziz tutulur. Yəni yel artıq azacıq oyanmış torpağı , təzəcə çıxmış yaza həsrət gülləri tərpədir, tumurcuqlanan ağacları yelləunder.

Axırıncısı torpaq çərşənbəsidir. Torpağı ana təbiət - Allahımız su ilə islatdı, günəşlə isitdi, onu yaratmağa hazırladı. Ona görə də, ilk yaz əkinini xışla-kotanla məhz torpaq çərşənbəsi günündə başlayardılar.

Azərbaycanda adətə görə Novruz bayramında göyərdilən səməni yazın gəlməsinin, təbiətin canlanmasının, əkinçiliyin rəmzidir. Azərbaycan kəndlisi səməni göyərtməklə növbəti təsərrüfat ilinə bərəkət, bolluq arzulamış, bayrama dörd həftə qalmış, hər çərşənbə axşamı və bayram günü tonqal qalamaqla, mahnı ("Gün çıx!" nəğməsi və s.) qoşmaqla oda, atəşə, günəşə olan etiqad və inamını ifadə etmişdir. Bütün bu mərasimlər İslamdan çox-çox əvvəl mövcud olmuş qədim şərq ənənələrinin davamıdır. Novruz bayramı qabağı adətən evdə, həyətdə abadlıq, təmizlik işləri aparılır, ağac əkilir və s. Novruz bayramında şirniyyat növləri (qoğal, külçə, fəsəli, paxlava, şəkərbura, şəkərçörəyi və s.) və plov bişirilir. Rəngbərəng yumurta boyanır, məcməyi və sinilərdə xonça bəzənir, şam yandırılır, tonqal qalanır, səməni qoyulur, ölənlərin xatirəsi yad edilir, küsülülər barışır, qohum-qonşular bir-birinə qonaq gedir, pay göndərirlər.

Bayram həm də qədim oyunlarla zəngindir. Xalqı tərənnüm edən yaradıcılığının bütün janrlarından ən çox nağıllar, hekayələr, dastanlar, lətifələr, məsxərələr və s. istifadə olunur. Qədim ənənələrdən "Xıdır İlyas" (məhsuldarlıq, çiçəklənmə rəmzi), "Kos-kosa" - meydan məzəli oyunu (baharın gəlməsi rəmzi) və falabaxmanı qeyd etmək olar.

Novruzu qeyd edərkən kəndlilər təzə ilin necə keçməyini - quru və yaxud yağışlı, məhsuldarlığın dərəcəsini təyin edirdilər. Ənənəyə görə Novruzun birinci gününü - yaz, ikinci - yay, üçüncü - payız, dördüncü günü isə - qış sayırlar.

***Tamara Həsənova***

# Vergilər Nazirliyi şəffaflıq və qarşılıqlı etimad təklif edir

***VergilərNaziriliyivergi ödəyicilərinə müraciətedərəkbildirirki, vergisistemində həyatakeçirilməsinə başlanılmış şəffaflığıntəminedilməsivə vergi ödəyiciləriilə vergiorqanları arasındaqarşılıqlı etimadınyüksəldilməsiprinsiplərivergi ödəyicilərinində öz öhdəliklərinə qanunauyğunyanaşmasını tələbedir. Şəffaflıq yalnız vergi orqanlarının fəaliyyətini deyil, eyni zamanda vergi ödəyicilərinin də öz öhdəliklərinə düzgün yanaşmasını əhatə etməlidir. Vergilərini tam həcmdə və vaxtında ödəyən hər bir intizamlı ödəyici vergi orqanlarının etibarlı tərəfdaşı olacaq və belə ödəyicilər daim dəstəklənəcəkdir.***

Vergihesabatınabilərəkdənsaxtam əlumatları daxiledənlərvə vergidənyayınmağacəhdgöstərənlərisə qanunqarşısındacavabverəcək, onlarlasərt, lakinqanununmüəyyənetdiyi çərçivədə davranılacaqdır. Kiçik və ya böyüklüyündən asılı olmayaraq, hər bir vergi ödəyicisi öz vergi öhdəliyinə əməl etməli, ikili mühasibatlığın aparılması, vergiyə cəlb olunan dövriyyələrin gizlədilməsi, vergidən yayınma halları aradan qaldırılmalıdır.

Sahibkarların öz vergi öhdəliklərini rahat şəkildə yerinə yetirməsi üçün mövcud sistem, vergi ödəyicilərinə göstərilən xidmətlər ödəyicilərin gözləntilərinə və tələblərinə uyğun şəkildə təkmilləşdiriləcəkdir.

Vergisistemində kadrlarınyenidənkomplektləşdirilməsi, barəsində şikayətlərdaxilolanvergiməmurları haqqında ölçü götürülməsi, peşəkarlarınirəli çəkilməsiilə bağlı tədbirlərə də başlanılmışdır.

VergilərNazirliyi ödəyicilərə keyfiyyətlixidmətlər, qarşılıqlı etimadtəklifedir, onları eşitməyə, qanunitələblərininhəllinə köməkgöstərməyə hazırdır. Vergi ödəyicilərindən isə intizamlı olmaq və vergi qanunvericiliyinin tələblərinə tam əməl etmək tələb olunur.

***5 saylı Ərazi Vergilər idarəsi***

# Kitabsız ev ürəksiz bədəndir

*(əvvəli səh 2-də)*

Kitabın yaranmasında əsas amil yazı materiallarıdır. İlk əlifbadan və yazıdan istifadə etməyə başlayan insanların ilk kitabları daş, gil lövhələr, metal, ağac və s. olub. Eramızdan əvvəl IV-III minilliklərdə qədim misirlilər papirus adlı yazı materiallarından isifadə etmişdir. Sonralar daha rahat üsul kağız meydana gəldi.. Bununla belə də kitablar hamısı əlilə yazıldığına görə, külli miqdarda nəşr olunmurdu və olan kitablar isə bahalı bir əşya sayılırdı.

Mütaliyəyə marağın artması əlyazma kitabların tədricən sıradan çıxmasına və kitab capının meydana gəlməsinə şərait yaratdı. VIII əsrin ilk dövr Koreyada, Çində, Yaponiyada kitab çapı ilə bağlı ilk axtarışlar başlasa da, yalnız 1440-cı ildə alman ixtiraçısı Iohann Qutenberqin ixtirası kitab tarixində yeni dövr açmışdır. Ksiloqrafiya üsulu ilə ilk çap kitabları XV əsrin ikinci yarısında Qərbi Avropada meydana gəldi. Kitabın çap texnologiyası zaman keçdikcə təkmilləşərək yeni kəşflər nəticəsində inkişaf etd

Kitabın geniş kütlələrə çıxışı, çap maşının ixtirasından sonra baş verdi. Əvvəla Avropada, daha sonra bütün dünya bu bir mədəni inqilaba səbəb oldu.

Artıq təkcə zadəganlar, imkanlılar deyil, hətta adi insanlar üçün də kitab əlçatan oldu.

Azərbaycanda kitab nəşri əsasən XIX əsrdə başlayır. Bir çox maarifçilərimiz Azərbaycanda ədəbiyyatın inkişafına dəstək göstərərək yerli sənət əsərlərinin nəşrini, eyni zamanda da xarici dillərdən Azərbaycan dilinə tərcümə edərək kitab nəşrini başlatdılar.Bunlardan misal kimi, "Qeyrət" mətbəəsində ilk çap edilən kitabı misal gətirmək olar. Bu Ömər Faiq Nemanzadənin "Nəşri-əsarə dəvət" kitabıdır.

Çox kiçik olmasına baxmayaraq əsil tarixdir. Sovet dövründə kitab nəşrləri gücləndi və kitablar kiril əlifbası ilə yazılırdı. Azərbaycan müstəqillik qazandıqdan sonra latın əlifbasına keçildi və buda kitabların yenidən nəşrinə səbəb oldu.

Kitabı oxuduqca daha heç nə bilmədiyimizi anlayırıq və daha da çox oxuyuruq. Əvvəlki, illərlə müqayisədə insanlar kitabxanaya gedib kitab oxumaqdansa daha çox virtual aləmi seçirlər. Asudə vaxtlarda kitab oxumaqdansa daha çox telefon, televizor qarşısında otururlar, bu isə bizim sağlamlığımıza ziyan vurur. Bu o demək deyil ki, oxucularımız azdır. Xeyir çünkü son zamanlarda həqiqətən nəşriyyatların sayı, həm çap olunan yeni əsərlərin sayı həm də oxuyucuların sayı artmağa başlayıb. Lev Tolstoy'un belə bir fikiri var"Yaxşı kitab eynən ağıllı bir adamla söhbət etməkdir. Oxucu kitabdan bilik alır, həyatı ümumiləşdirmək, dərk etmək qabiliyyətini öyrənir"

Kitab oxumağın bizə bir çox xeyri var. Düşünmə qabiliyyətimizi artırır, stressdən uzaq tutur, söz ehtiyatımızı artırır, yaradıcılıqı, yaddaşı, məntiqi artırır. Bir sözlə-ruhumuza xeyirdir.

Tariximizi özündə əks etdirən romanları, tarixə aid kitabları oxumaqla kecmişimizə nəzər salib gələcəyimizi qurmalıyıq.

**Fyodor Dostoyevski:** Oxuyun və öyrənin. Ciddi kitablar oxuyun. Qalanını həyat edəcək.

**Aleksandr Puşkin:** Mütaliə ən yaxşı təlimdir. Böyük adamın fikirləri ilə məşğul olmaq ən maraqlı elmdir.



**Əminə Talıbova,**
**N.Rüstəmov adına Abdulabad kənd tam orta məktəbin IX a sinif şagirdi**

## Allah rəhmət eləsin!

Mərkəzi rayon Xəstəxanasının baş həkimi Beydulla Qarayev və xəstəxana kollektivi iş yoldaşları İlkin və Xanım Əkbərovlara əzizləri

**Qulunun**

vəfatından kədərləndiklərini bildirir, dərin hüznlə başsağlığı verirlər.

"Hacıqabul" qəzetinin redaktoru Xuraman Feyruzqızı İlkin və Xanım Əkbərovlara əzizləri

**Qulunun**

vəfatından kədərləndiyini bildirir, dərin hüznlə başsağlığı verir.


**HACIQABUL**

**Baş redaktor:** Xuraman Feyruzqızı

**Həmtəsisçi:** Qəzetin jurnalist kollektivi

Qəzet "Hacıqabul" qəzetinin kompyuter mərkəzində yığılmışdır, "Son Dakika" çap evində ofset üsulu ilə çap olunmuşdur

Kapital Bank Hacıqabul filialı
İndeks: 66975
Lisenziya: № 022579
Müəlliflərin mövqeyi ilə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.

**Ünvan:** Hacıqabul şəhəri, İ.Qayıbov küçəsi 4.
**Tel:** 4-32-00,
**Tiraj:** 1200